**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# İXRACATÇI FERMER TƏSƏRRÜFATLARININ MALİYYƏLƏŞDİRİLMƏSİ MEXANİZMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

İxtisas: 5301.01 – "Daxili fiskal siyasət və dövlət maliyyəsi"

Elm sahəsi: 53 - İqtisad elmləri

İddiaçı: **Əbdülrəhim Əbdülrəhman oğlu Dadaşov**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2023**

Dissertasiya işi Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) "Maliyyə və audit" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** Əməkdar müəllim,
iqtisad elmləri doktoru, professor
**Əvəz Əkbər oğlu Ələkbərov**

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru, professor
**Sərvər Alıcan oğlu Abbasov**

iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**Azim Heydər oğlu Abasov**

iqtisad elmləri üzrə fəlsəfə doktoru
**Orxan Mübariz oğlu Bağırov**

Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komisiyasının Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində fəaliyyət göstərən ED 2.10 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: ____________ *imza* iqtisad elmləri doktoru, professor
**Yaşar Atakişi oğlu Kəlbiyev**

Dissertasiya şurasının elmi katibi: ____________ *imza* iqtisad elmləri üzrə fəlsəfə doktoru
**Suqra İnqilab qızı Hümbətova**

Elmi seminarın sədri: ____________ *imza* iqtisad elmləri doktoru, professor
**Zahid Fərrux oğlu Məmmədov**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycan Respublikası öz müstəqilliyini elan etdikdən sonra mövcud olan ən vacib iqtisadi problemlərdən biri də ölkəmizin dünya iqtisadiyyatına inteqrasiyası, beynəlxalq ticarət münasibətlərinin qurulması, ixrac potensialının yüksəldilməsi və bu potensiallardan səmərəli istifadə məqsədilə mühüm qərarlar qəbul etdi. Müstəqilliyimizin ilk illərində respublikamızın iqtisadi durumu əsasən idxaldan asılı vəziyyətdə olmuş, iqtisadiyyatın vaxtı ilə "lokomotiv" sahələri belə dərin iqtisadi böhranlarla müşahidə olunmuşdur. Lakin hal-hazırda iqtisadi vəziyyət tamamilə fərqlidir, milli iqtisadiyyatımızda sürətli və davamlı inkişafı təmin olunmuşdur, iqtisadiyyatımızın dünya iqtisadiyyatına inteqrasiyası yönündə müsbət nəticələr əldə edilmiş, ticari və iqtisadi əlaqələrin möhkəmləndiyi ölkələrin ümumi sayı 150-ə çatmışdır. İnkişaf etmiş və inkişaf etməkdə olan ölkələrinin təcrübələri göstərir ki, müasir dövrdə heç bir ölkə beynəlxalq ticarət sistemindən təcrid olunaraq, ixrac-idxal əməliyyatları qurulmadan milli iqtisadiyyatın inkişafını təmin etmək iqtidarında ola bilməz.

Məlumdur ki, kənd təsərrüfatı ixracı ölkənin ümumi ixrac strukturunu və ümumilikdə makroiqtisadiyyatın diversifikasiyasını və çeşidliliyini təmin edir. Digər tərəfdən isə kənd təsərrüfatı ixracı sayəsində dövlət büdcəsinə xarici valyuta gəlirləri axın edir və ölkənin ticarət balansı tənzimlənir. Bununla belə, kənd təsərrüfatı məhsullarının ixracında fermer təsərrüfatlarının rolu çox vaxt daha iri kənd təsərrüfatı müəssisələri və təchizat zəncirləri ilə sıx bağlıdır. Fermer təsərrüfatları arasında əməkdaşlıq, qlobal bazarlara çıxış, maliyyələşmə mexanizminin və dövlət dəstəyinin effektivliyi fermer təsərrüfatlarının istehsal etdiyi kənd təsərrüfatı məhsullarının ixrac potensialının reallaşdırılmasında həlledici amillərdən biridir.

Milli və dünya miqyasında aqrar iqtisadiyyatın tərkib hissələrindən biri kimi fermer təsərrüfatlarının da daimi əsasda fəaliyyət göstərməsi üçün maliyyə resursları səfərbər olunur, bölüşdürülür, yenidən bölüşdürülür və yekunda istifadə olunur. Kənd təsərrüfatı məhsullarının istehsalını və ixracını həyata keçirən iqtisadi təsərrüfatçılıq subyektlərindən biri kimi fermerlər məhsul və

xidmətlərini xarici bazarlara satmaq və ya başqa sözlə, ixrac etmək üçün lazım olan maliyyə resurslarına ehtiyac duyur, maliyyə institutlarının xidmətlərindən faydalanırlar. Buna görə də ixracatçı fermer təsərrüfatlarında yaranan maliyyə münasibətləri, maliyyə resurslarının idarə olunması, maliyyə planlaşdırılması və maliyyə nəzarəti sisteminin formalaşması, maliyyəyə çıxışının asanlaşdırılması, maliyyə dəstəyinin yeni formalarının araşdırılması, ümumilikdə bu sahədə maliyyə mexanizminin təkmilləşdirilməsi istiqamətlərinin öyrənilməsinə ehtiyac var.

Müasir dövrdə qeyri-neft sektorunun inkişafına yönəldilən diqqət ixracatçı fermer təsərrüfatlarına çevrilməsi və maliyyəyə çıxışının təminatı, onların maliyyələşdirilməsi mexanizminin hərtərəfli öyrənilməsi problemlərinin tədqiqini qarşıya bir məqsəd kimi qoyur.

Dünya miqyasında baş verən proseslərə adekvat olaraq qlobal təşkilatların yayımladığı nəşrlər və hesabatlarda, həmçinin ölkə Prezidenti tərəfindən qəbul edilmiş strateji siyasi sənədlərdə, milli prioritetlərdə, çıxış nitqlərində kənd təsərrüfatı ixracının artırılması probleminin əsasında duran çatışmazlıqlardan biri kimi fermer təsərrüfatlarının maliyyə resurslarına çıxışının artırılması zərurəti, ixracın və aqrar sektorun maliyyələşdirilməsi məsələləri daim gündəmdə aktual məsələ kimi vurğulanmışdır.

Belə ki, kənd təsərrüfatının inkişaf etdirilməsi, ixrac potensialının və ixrac çeşidlərinin artırılması, ixrac coğrafiyasının genişlənməsi üçün Azərbaycanda ixracatçı fermer təsərrüfatlarının müasir maliyyə mexanizminin təkmilləşdirilməsinin əsas istiqamətlərinin öyrənilməsi mühüm tədqiqat mövzusu kimi işin aktuallığını ön plana çıxarır.

Azərbaycanın müstəqillikdən öncəki dönəmləri və müstəqillik dövründə təsərrüfatların maliyyələşmə mexanizmi məsələləri, fermer təsərrüfatları və ümumilikdə aqrar sferanın maliyyələşməsi mexanizmi ilə bağlı məsələlər iqtisadçı alimlərin diqqət mərkəzində olmuşdur. İqtisadçı alimlərdən Ə.Ə.Ələkbərov, M.X.Həsənli, M.M.Sadıqov, T.Ə.Quliyev, Z.Ə.Səmədzadə, A.K.Ələsgərov, S.V.Salahov, R.Ə.Balayev, İ.H.İbrahimov, V.H.Abbasov, N.V.Əlibəyov, F.F.Fikrətzadə, B.S.Əhmədov, İ.V.Əhmədov, C.X.Vəliyev,

M.M.Hüseynov, M.S.Həsənova, Y.N.Fətəliyeva və başqaları problemə müxtəlif baxış prizmasından yanaşaraq öz tədqiqatlarında və nəşr olunmuş əsərlərində araşdırmışlar. Əcnəbi iqtisadçılardan E.Atkinson, B.Q.Bazarova, L.A.Drobozina, M.V.Romanovski, Q.İ.Beloqlazova, O.A.Tarabrin, Y.V.Truşin, V.A.Tixonov, A.İ.Abalkin, S.F.Moçerniy, S.İ.Luşin, M.G.Lapusta və digər xarici iqtisadi məktəbin nümayəndələri maliyyələşmə mexanizminin müxtəlif sferalarda fəaliyyəti ilə bağlı, aqrar sferanın maliyyələşməsi, aqrar ixracın inkişaf istiqmətləri, onların iqtisadi səmərəliliyi, inkişaf yolları haqqında çoxlu araşdırmalar aparmış, əsərlər yazmış, monoqrafiyalar, məqalələr dərc etdirmişdir.

Lakin qeyd etmək lazımdır ki, adı çəkilən alimlərin əsərlərində ixracatçı fermer təsərrüfatlarının maliyyələşdirilməsi mexanizminin təkmilləşdirilməsi istiqamətlərinin müəyyənləşdirilməsi ilə bağlı məsələlər ayrıca tədqiqat obyekti kimi az öyrənilmiş, bir sıra nəzəri və metodoloji məsələlər elmi cəhətdən lazımınca tədqiq olunmamışdır.

Qeyd olunanları nəzərə alaraq, dissertasiya işinə fundamental araşdırmaya ehtiyacı olan tədqiqat işi kimi baxıla bilər və bu amillər tədqiqat işinin mövzusunun aktuallığını əks etdirir.

**Tədqiqatın obyekti və predmeti.** Ölkənin aqrar sahəsində fəaliyyət göstərən ixrac yönümlü kənd təsərrüfatı məhsullarını istehsal edən fermer təsərrüfatları, eləcə də kənd təsərrüfatı məhsullarının ixracı məqsədilə yaradılmış assosiasiyalar və birliklər tədqiqatın obyekti olaraq seçilmişdir. Tədqiqatın predmetini isə bütövlükdə ixrac maliyyələşdirilməsi sistemi, o cümlədən ixracatçı fermer təsərrüfatlarının maliyyələşmə mexanizminin icrası zamanı dövlət-fermer təsərrüfatı, dövlət-maliyyə institutları və maliyyə instututları-ixracatçı fermer təsərrüfatları arasındakı iqtisadi münasibətlər təşkil edir.

**Tədqiqatın məqsədi və vəzifələri.** Tədqiqatın məqsədi fermer təsərrüfatlarının ixrac potensialının artırılmasında maliyyə mexanizmin rolu və onun nəzəri əsaslarını araşdırmaqdan, maliyyə-kredit mexanizminin mövcud vəziyyəti və inkişaf təmayüllərini müəyyənləşdirməkdən, ixracatçı fermer təsərrüfatlarının maliyyələşmə mexanizminin təkmilləşdirilməsinə dair elmi cəhətdən əsaslandırılmış təkliflər hazırlamaqdan ibarətdir. Tədqiqatın məqsədinə əsaslanaraq aşağıdakı vəzifələr qarşıya qoyularaq həll edilmişdir:

- ixrac potensialının və fermer fəaliyyətinin mahiyyətini araşdırmaq, ixracatçı fermer təsərrüfatlarının fəaliyyətinə təsir edən amilləri müəyyən etmək;

- ixracatçı fermer təsərrüfatlarının maliyyə-kredit mexanizminə təsir edən amilləri müəyyənləşdirmək və mövcud durumu dəqiqləşdirmək;

- ixracatçı fermer təsərrüfatları ilə maliyyə institutları, həmçinin dövlət arasındakı əlaqələri müəyyənləşdirmək;

- ixracatın dövlət tənzimlənməsinin iqtisadi mexanizmini və əsas istiqamətlərini tədqiq etmək;

- fermer təsərrüfatlarının ixrac üçün stimullaşdırılması və onların maliyyə mexanizminin səmərəli təşkili məsələləri üzrə beynəlxalq təcrübəni öyrənmək;

- ixracatçı fermer təsərrüfatlarının maliyyə mexanizminin təkmilləşdirilməsi istiqamətlərini müəyyənləşdirmək və təkliflər hazırlamaq.

**Tədqiqat metodları.** Tədqiqat işində elmi-tədqiqat metodları sistemli şəkildə tətbiq edilmişdir. Tədqiqatda dinamik təhlil, ölkələrarası müqayisə və riyazi-statistik proqnozlaşdırma, ekonometrik təhlil, korrelyasiya-reqressiya metodlarından istifadə edilmişdir. Həmçinin induksiya-deduksiya metodu ilə təhlilin gedişatı dünya və ölkə təcrübəsində ixracatçı fermer maliyyələşməsində innovativ maliyyə alətlərindən istifadəyə dair yeni yanaşmalar vasitəsilə ümumiləşdirmələr aparılmışdır.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Tədqiqat işinin müdafiəsinə çıxarılan əsas müddəalar aşağıdakılardır:

✓ kənd təsərrüfatı məhsulları ixracını şərtləndirən, ixrac potensialına təsir edən amillər və mühüm elmi-nəzəri müddəalar müəyyən edilmişdir;

✓ ixracatçı fermer təsərrüfatlarının maliyyələşmə mexanizminin fəaliyyətini təmin edən iqtisadi mühiti şərtləndirən amillər sistemi müəyyən edilmişdir;

✓ aqrar ixracın, habelə ixracatçı fermer təsərrüfatlarının dünya bazarına çıxışının maliyyə təminatının inkişaf dinamikası təhlili və inkişafının əsas istiqamətləri müəyyənləşdirilmişdir;

✓ ixracatçı fermer təsərrüfatlarının maliyyələşmə

mexanizmində dövlət dəstəyinin səmərəliliyi ölçülmüş və onun yüksəldilməsi yolları seçilmişdir;

✓ ixracatçı fermer təsərrüfatlarının maliyyələşdirilməsi üzrə qabaqcıl beynəlxalq təcrübə və onun üstünlüklərinin Azərbaycanda tətbiqi istiqamətində təkliflər işlənib hazırlanmışdır.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat işinin elmi yeniliyi aşağıdakılardan ibarətdir:

➢ kənd təsərrüfatında və aqrar ixracatda dövlət dəstəyinin təsiri öyrənilmiş, həmçinin müasir mərhələdə ixracatçı fermer təsərrüfatlarının maliyyələşməsindəki rolu əsaslandırılmışdır;

➢ aparılmış analitik təhlillər nəticəsində ölkədə ixracatçı fermer təsərrüfatlarının maliyyə-kredit mexanizminə təsir edən amillər sistemi öyrənilmiş və nəticədə bu sahə üzrə mövcud problemlər aşkar edilmişdir;

➢ ixracatçı fermer təsərrüfatlarının maliyyələşdirilməsində dövlət dəstəyinin səmərəliliyinin artırılması istiqamətləri göstərilmişdir;

➢ ölkədə ixracatçı fermer təsərrüfatlarının maliyyələşdirilməsi mexanizminin sistem həlli yolları və inkişaf perspektivləri müəyyən edilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat zamanı əldə edilmiş nəticələr və əsaslandırılmış təklif və tövsiyələr ixracatçı fermer təsərrüfatlarının maliyyə mexanizmini xarakterizə etməyə, ona təsir edən amilləri və təsir dərəcələrini proqnozlaşdırmağa, daha da mükəmməl maliyyələşmə mexanizmini formalaşdırmağa, tədqiqatçı alimlərə bu sahədəki elmi araşdırmaların daha da dərinləşməsinə imkan verir.

Elmi cəhətdən əsaslandırılmış müddəalar və təkliflər fermer təsərrüfatlarının ixracın artırılması üçün stimullaşdırılması, ixracın reallaşdırılması istiqamətində əlverişli maliyyə mexanizminin yaradılması üzrə yaranmış mövcud problemlərin həllində istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Dissertasiya mövzusu ilə bağlı 2017-2021-ci illərdə beynəlxalq və respublika səviyyəsində keçirilmiş bir çox elmi konfransda məruzələr dinlənilmiş, beynəlxalq nüfuzlu xarici elmi jurnallarda (Rusiya, Türkiyə) və Ali Attestasiya

Komissiyasının tövsiyyə etdiyi elmi nəşrlər siyahısında olan dövri elmi jurnallarda məqalələr çap olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı**: Dissertasiya işi Azərbaycan Dövlət İqtisad Universitetinin "Maliyyə və audit" kafedrasında yerinə yetirilmişdir**.**

**Dissertasiyanın quruluşu və həcmi.** Dissertasiya işi giriş, üç fəsil, nəticə və istifadə edilmiş 130 ədəbiyyat siyahısı olmaqla 165 səhifəni əhatə edir. Dissertasiya işində 14 cədvəl, 14 qrafik və 4 şəkil verilmişdir. Tədqiqatın ümumi həcmi ədəbiyat siyahısı, cədvəllər və şəkillər istisna olmaqla – 266070 şərti işarəyə bərabərdir. Giriş - 14563 işarə, birinci fəsil – 97682 işarə, ikinci fəsil - 98755 işarə, üçüncü fəsil – 42617 işarə, nəticə - 12450 işarədən ibarətdir.

## DİSSERTASİYA İŞİNİN MÜNDƏRİCATI

**GİRİŞ**

**I Fəsil. İxracatçı fermer təsərrüfatlarının maliyyələşdirilməsinin nəzəri-metodoloji əsasları**

1.1.İxracatçı fermer təsərrüfatlarının fəaliyyətinin mahiyyəti və maliyyələşdirilməsi ilə bağlı nəzəri-konseptual yanaşmalar

1.2.Müasir maliyyə mexanizminin tərkib elementləri və ixracatçı fermer təsərrüfatlarının maliyyələşdirilməsində təzahürü formaları

1.3.İxracatçı fermer təsərrüfatlarının maliyyələşdirilməsi mexanizmi ilə bağlı beynəlxalq təcrübə və qlobal çağırışlar

**II Fəsil. Azərbaycanda ixracatçı fermer təsərrüfatlarının maliyyələşdirilməsi mexanizminin müasir vəziyyətinin tədqiqi**

2.1.İxracatçı fermer təsərrüfatları fəaliyyətinin inkişaf dinamikasının təhlili və qiymətləndirilməsi

2.2.İxracatçı fermer təsərrüfatlarının maliyyələşməsi mexanizminin institusional strukturu: dövlət və maliyyə institutlarının funksional əlaqəsi

2.3.İxracatçı fermer təsərrüfatlarının maliyyələşdirilməsi problemlərinin təhlili

**III Fəsil. İxracatçı fermer təsərrüfatlarının maliyyələşdirilməsi mexanizminin təkmilləşməsinin prioritet istiqamətləri**

3.1.İxracatçı fermer təsərrüfatlarının maliyyələşmə mexanizmində dövlət dəstəyinin optimallaşdırılması imkanları

3.2.Azərbaycanda ixracatçı fermer təsərrüfatlarının maliyyələşdirilməsi mexanizminin təkmilləşdirilməsi istiqamətləri

**Nəticə və təkliflər**

**İstifadə edilmiş ədəbiyyat**

## MÜDAFİƏYƏ TƏQDİM EDİLƏN ƏSAS ELMİ MÜDDƏALAR

**1. Kənd təsərrüfatı məhsulları ixracını şərtləndirən, ixrac potensialına təsir edən amillər sistemli şəkildə öyrənilmiş və mühüm elmi-nəzəri müddəalar müəyyən edilmişdir.**

Məlumdur ki, kənd təsərrüfatı bütün ölkələrin ərzaq təhlükəsizliyinin təmin edilməsində və əhalinin ərzaq məhsulları ilə etibarlı təminatında mühüm rol oynayır. Məhz bu baxımdan kənd təsərrüfatı hər bir ölkənin iqtisadi sisteminin əsasını təşkil edir. Kənd təsərrüfatı ərzaq və sənaye sahələrini xammalla təchiz etməklə yanaşı, kənd yerlərində yaşayan əhalinin əsas hissəsinin işlə təmin edilməsi və məşğulluq səviyyəsinin yüksəlməsində də mühüm rola malikdir.

Kənd təsərrüfatı fəaliyyətinin son nəticəsinin səmərəliliyi aqrar iqtisadi münasibətlərin səmərəli təşkilindən birbaşa asılıdır. Aqrar iqtisadi münasibətlər dedikdə, kənd təsərrüfatı sahəsində torpaq sahibliyinə və ondan istifadə hüququ ilə əlaqədar cəmiyyətdə formalaşan iqtisadi münasibətlərin xüsusi tərkib hissəsi başa düşülür. Bu münasibətlərin əsas xüsusiyyətləri tərifindən göründüyü kimi, kənd təsərrüfatı istehsalı vasitələrinin əsası torpaq üzərində qurulmuşdur. Torpaq sahələrinin müxtəlif iqtisadi sistemlərdə siniflər və sosial qruplar arasında bölüşdürülməsi aqrar münasibətlərin xarakterini müəyyən edir və bəzən də cəmiyyətdə kəskin ziddiyyətlərə səbəb olur. Aqrar münasibələrdə yaranan bütün bu ziddiyyətlərin həlli aqrar-sənaye inteqrasiyasının, ictimai bölgüsünün dərinləşməsinə zəmin yaradır.

S.F.Moçerniy və bir sıra digər rus iqtisadçı alimlərinin fikrincə aqrar iqtisadi münasibətlərin əsas subyektləri tənzimləyici və nəzarət funksiyası ilə dövlət, hüquqi şəxs yaradaraq fəaliyyət göstərən kənd təsərrüfatı müəssisələri, fərdi kənd təsərrüfatı məhsulları istehsalçıları (fermer və ailə-kəndli təsərrüfatları) hesab olunur[1].

Aqrar münasibət subyektlərinin qarşılıqlı əlaqəsi bu sahədə iqtisadi münasibətlərin əsasını təşkil edir. Bu subyektlər təkcə öz aralarında deyil, başqa sənaye və cəmiyyət nümayəndələri ilə də iqtisadi münasibətlərdə iştirak edirlər.

Tədqiqat işində bu iqtisadi münasibətlərin əsas subyekti kimi

[1] Мочерный, С.В. Экономическая теория: учеб. для вузов / С.В.Мочерный, В.Н.Некрасов, В.Н.Овчинников [и др.] – Москва: Приор, - 2000. – 415 с.

“fermer” və “fermer təsərrüfatı” anlayışlarına izah verilmiş, mahiyyəti açıqlanmışdır. Belə k, **fermer** dedikdə, şəxsi və icarəyə götürülmüş torpaq sahəsində ailə əməyinə və ya muzdlu əməyə əsaslanan özəl təsərrüfatın və ya kənd təsərrüfatı müəssisəsinin sahibidir. Başqa sözlə desək, fermer dedikdə qısaca kəndli sahibkar nəzərdə tutulur[2]. Eyni zamanda fermer təsərrüfatına bazar iqtisadiyyatı şəraitində əmtəəlik kənd təsərrüfatı məhsulları istehsal edən xüsusi kənd təsərrüfatı müəssisəsi kimi yanaşılmasının daha doğru olduğu qeyd edilib.

Kənd təsərrüfatı ixracı ölkənin ümumi ixrac strukturunu və ümumilikdə makroiqtisadiyyatın diversifikasiyasını və çeşidliliyini təmin edir. Digər tərəfdən isə kənd təsərrüfatı ixracı sayəsində dövlət büdcəsinə xarici valyuta gəlirləri axın edir və ölkənin ticarət balansı tənzimlənir. Bununla belə, kənd təsərrüfatı məhsullarının ixracında fermer təsərrüfatlarının rolu çox vaxt daha iri kənd təsərrüfatı müəssisələri və təchizat zəncirləri ilə sıx bağlıdır. Fermer təsərrüfatları arasında əməkdaşlıq, qlobal bazarlara çıxış, maliyyələşmə mexanizminin və dövlət dəstəyinin effektivliyi fermer təsərrüfatlarının istehsal etdiyi kənd təsərrüfatı məhsullarının ixrac potensialının reallaşdırılmasında həlledici amillərdən biridir.

Kənd təsərrüfatı məhsullarının satışından maksimum mənfəətin əldə edilməsinə bəzən daxili bazarda deyil ixrac bazarlarında nail olunur. Belə ki, fermer təsərrüfatlarının istehsal etdikləri məhsulları daxili bazarda satışa çıxarmaq əvəzində ixraca yönəltməsi ilə satış həcmini artırır, yüksək mənfəət əldə edir, dünya bazar payına malik olmaqla, riskləri və gəlirləri diversifikasiya edir, rəqabətqabiliyyətlilik şəraitində innovasiyaların tətbiqinə ehtiyac duyur, tərəfdaş ölkənin mövsümi tələb həcmini ixrac vasitəsilə ödəyir, həmçinin digər iqtisadi üstünlüklər əldə edirlər[3].

---

[2] Səmədzadə, Z.Ə. Böyük iqtisadi ensiklopediya: [5 cilddə] / Z.Ə.Səmədzadə, - Bakı: Şərq-Qərb, - c. 2. – 2012. – 632s.

[3] Tekle S. Advantages And Challenges Of Exporting: / The Trade Game U.S. Small Business Administration & Global Source, Inc.

**2. Aqrar ixracın, habelə ixracatçı fermer təsərrüfatlarının dünya bazarına çıxışının maliyyə təminatının inkişaf dinamikası təhlil edilmiş və inkişafının əsas istiqamətləri müəyyənləşdirilmişdir.**

İxracatçı fermer təsərrüfatlarının maliyyələşmə mexanizminin mövcud vəziyyəti ilə bağlı düzgün təhlillər və araşdırmalar aparılması öz-özlüyündə bilavasitə sektor səviyyəsində qiymətləndirmələr aparılmasını zəruri edir. Bununla əlaqədar alaraq, ilk öncə ölkə səviyyəsində aqrar sektorun və aqrar ixracatın mövcud durumu, fermer təsərrüfatlarının istehsal fəaliyyəti və onun iqtisadi göstəriciləri təhlil edilmişdir. Lakin, ixracatçı fermer təsərrüfatlarının istehsal və xarici-iqtisadi fəaliyyəti ilə bağlı statistik göstəricilər yetərincə olmadığından bu sahədə tədqiqatın məhdudiyyətlərini təşkil etmişdir.

Aqrar ixrac statistikasında mövcud inkişaf trendinə əsasən, bütün növ kənd təsərrüfatı məhsullarının 2017-ci ildən sonrakı ixracatında artım az da olsa müşahidə edilir. İxracın mütləq göstəriciləri ilə yanaşı, bunu nisbi faiz göstəriciləri ilə də göstərmək mümkündür. Belə ki, aqrar ixracatda həmin növ məhsulların xüsusi çəkisi qeyri-stabildir. 2022-ci ildə təqribən 17.6 milyard manat həcmində kənd təsərrüfatı və ərzaq məhsulları istehsalı müqabilində, bu məhsulların 11%-i, yəni 1.14 milyard ABŞ dolları ixraca yönəldilmişdir (***Qrafik 1***).




**Qrafik 1. Azərbaycanda kənd təsərrüfatı və ərzaq məhsullarının ixrac dinamikası (milyon ABŞ dolları)**

*Mənbə: Dövlət Statistika Komitəsinin məlumatları əsasında tərtib edilib (https://www.stat.gov.az/source/trade/)*

Göründüyü kimi, kənd təsərrüfatı məhsullarının bir hissəsi ixrac

olunsa da ümumi həcmdə və dünyadakı payında miqyası kiçik olaraq qalır. Belə ki, Azərbaycanın kənd təsərrüfatı və ərzaq məhsulları ixracının dünya ixracındakı payı illər üzrə 0.1% həddini aşa bilmir, 2021-ci ildə bu göstərici cəmi 0.06% təşkil etmişdir. Ölkə üzrə kənd təsərrüfatı və ərzaq məhsullarının ixracı ölkə üzrə cəmi məhsul ixracının təqribən 3%-ini təşkil edir. Məlumat üçün qeyd edək ki, bu məhsullar üzrə idxal göstəricilərinin ölkədəki cəmi idxalda payı 19%-dir. Bu da təqribən kənd təsərrüfatı və ərzaq məhsullarının ticarət balansında 1.6 milyard ABŞ dolları həcmində mənfi fərqin yaranması ilə nəticələnmişdir. Onu da qeyd edək ki, ölkədə kənd təsərrüfatı məhsullarının əsas ixrac bazarı qonşu ölkələr, MDB ölkələri, xüsusilə Rusiyadır. Bu da ixrac coğrafiyasında diversifikasiyaya ehtiyac olduğunu göstərən faktdır.

Ölkədə kənd təsərrüfatı məhsullarının ixracı ilə məşğul olan təqribən 150-ə yaxın fermer təsərrüfatı vardır, ancaq müvafiq məhsullar üzrə ixracın yarıdan çoxu cəmi 6 sahibkarın, yaxud 80 faizi 25 sahibkarın payına düşür. Kənd təsərrüfatı və ərzaq məhsullarının ixracı sahəsində ümumilikdə 35-ə qədər iri ixracatçı müəssisələr mövcuddur ki, bunlar da ixrac payının təqribən yarıya qədərini təşkil edir. 2022-ci ildə təqribən 330.1 milyon ABŞ dolları həcmində kənd təsərrüfatı məhsulu məhz bəzi iri müəssisələr tərəfindən ixrac edilmişdir. Bu müəssisələrin tərkibinə həm dövlət, həm də qeyri-dövlət (özəl) müəssisələr daxildir.

Azərbaycanda kənd təsərrüfatı məhsullarının ixracı ilə məşğul olan fermer təsərrüfatlarının maliyyələşdirilməsi mexanizmində Sahibkarlığın İnkişafı Fondu (SİF), Aqrar Kredit və İnkişaf Agentliyi (AKİA), İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi kimi dövlət qurumlarının iştirakı ilə yanaşı, müvəkkil kommersiya bankları, bank olmayan kredit təşkilatları və kredit ittifaqları, Aqrar Sığorta Fondu kimi maliyyə institutları fəaliyyət göstərir.

Ölkədə əsasən SİF və AKİA vasitəsi ilə fermer təsərrüfatlarının güzəştli kreditlərə çıxışı təmin edilməkdədir. Belə ki, təsərrüfatı və emalı ilə məşğul olan sahibkarlıq subyektlərini SİF tərəfindən son 10 il ərzində 1.4 milyard manat civarında güzəştli kreditlə təmin edilmişdir ki, bu göstərici 2022-ci ildə 100 milyon manata yaxın olmuşdur. AKİA tərəfindən isə aqrar sektorla məşğul olan

istehsalçılara 2007-ci ildən etibarən 9.1 min sahibkara 215.2 milyon manatdan artıq, təkcə 2022-ci ildə 74.4 milyon manat güzəştli kredit verilmişdir.

Fermer təsərrüfatları və o cümlədən kənd təsərrüfatı məhsullarının ixracı ilə məşğul olan fermerlərin kredit vəsaitlərinə çıxışının qiymətləndirilməsi məqsədilə hər il orta hesabla 4 minədək fermer təsərrüfatları arasında Aqrar Tədqiqatlar Mərkəzi tərəfindən aparılmış sorğuların nəticələri praktiki olaraq fermerlərin kreditdən istifadə göstəricisinin artıb-azalması güzəştli kreditlərlə təminatdan asılı olaraq dəyişdiyini göstərir (***Qrafik 2***).




**Qrafik 2. İxracyönümlü kənd təsərrüfatı məhsulları istehsalçılarının kredit resurslarına çıxışının mövcud vəziyyəti**

*Mənbə: Aqrar Tədqiqatlar Mərkəzinin FTMMS hesabatları, Bakı-2022*

Aqrar sferaya qoyulan kredit portfelinin həcmi 2022-ci ildə 629.1 milyon manat olmuşdur ki, bu da iqtisadiyyatın real sektoruna kredit qoyuluşlarının strukturunda 3.1% təşkil etmişdir. Kənd təsərrüfatı və emal sektoruna kredit qoyuluşlarının həcmi 2022-ci ildə 2017-ci illə müqayisədə 46.6% artmışdır. 2015-ci ildə baş verən valyuta devalvasiyalarının bank-kredit sisteminə təsiri kənd təsərrüfatı sahəsində də özünü büruzə vermişdir. Belə ki, 2014-cü ildə kənd təsərrüfatı və emal sahəsinə kredit qoyuluşlarının həcmi 847.3 milyon manat olsa da, sonrakı illərdə bu rəqəm 429.2 milyon manat həddinə qədər aşağı enməsilə müşahidə olundu.

Ölkədə son 15 il üzrə maliyyə dərinliyi göstəricilərinə nəzər

saldıqda, nəinki kənd təsərrüfatı sahəsində, həmçinin qeyri-neft sektorunda və ümumi iqtisadiyyat sahəsində də ölkədə dəyişkən və son illər nisbi azalmaya meylli trend müşahidə olunmaqdadır. Belə ki, 2015-ci il devalvasiyaları kredit portfelinin həcmini aşağı salaraq maliyyə dərinliyinə də mənfi təsir göstərmişdir. Lakin 2018-ci ildən etibarən maliyyə dərinliyi göstəricilərində müsbət dinamika dəyişikliyi nəzərə çarpır. 2022-ci ildə isə kənd təsərrüfatı üzrə maliyyə dərinliyi 9.9% təşkil etmişdir (***Qrafik 3***).




**Qrafik 3. Kənd təsərrüfatında maliyyə dərinliyi üzrə müqayisəli göstəricilər (%)**

*Mənbə: Dövlət Statistika Komitəsinin və Mərkəzi Bankın statistik məlumatları əsasında tərtib edilib*

Son 15 ilin trendini nəzərə alaraq, 2025-ci il üçün ölkə üzrə kənd təsərrüfatı sektorunda maliyyə dərinliyi göstəricisi proqnozlaşdırılmışdır. Hesablama nəticələri 97% ehtimalla (loqarifmik asılılıq olan trend xətti) növbəti 5 ildə maksimum 16% olacağını deməyə əsas verir.

Hesab edirik ki, gələcəkdə fermerlərin istehsal fəaliyyətində fasiləsizliyin təminatı onlar üçün yeni ixrac coğrafiyası və ixrac şərtlərini müəyyən edəcəkdir. Bunun üçün də fermer təsərrüfatlarına əlverişli maliyyə çıxışı, innovativ maliyyə mexanizmlərinin tətbiq edilməsi məqsədəuyğun hesab edilir.

**3. İxracatçı fermer təsərrüfatlarının maliyyələşmə mexanizmində dövlət dəstəyinin səmərəliliyi ölçülmüş və onların yüksəldilməsi yolları seçilmişdir.**

Aqrar istehsal fəaliyyətində məhsuldarlıq və gəlirliliyin təbii iqlim və coğrafi yerləşməsindən asılı olması, kapitalın aşağı dövretmə sürətinə malik olması və s. bu kimi amillər aqrar sahədə qənaət normasının az olmasına səbəb olur. Bu isə son nəticədə fermerlərin şəxsi vəsaitləri hesabına investisiya yatırmaq, həmçinin maliyyə bazarlarından vəsaitlərin cəlb olunmasını təminetmə imkanlarını məhdudlaşdırır. Buna görə də aqrar sahədə maliyyə vəsaitləri ilə təminatın yaxşılaşdırılmasında dövlətin rolu və dəstəkverici mexanizmlərin daim təkmilləşdirilməsinə ehtiyac yaradır.

Aqrar sektorun dövlət tənzimlənməsi və istehsalçılara, o cümlədən əsas kənd təsərrüfatı məhsullarının ixracatında payı olan fermerlərə dövlət dəstəyinin mühüm obyektinə çevrilən "əlverişli" və "güzəştli" kredit resursları ilə təminatı məsələsi də ölkəmiz üçün aktual hesab edilir. Aqrar istehsalın ərzaq təhlükəsizliyi və ixrac potensialı baxımından strateji əhəmiyyətə malik olması bu sahəyə dövlət dəstəyinin müxtəlif xarakterliliyini özündə ehtiva etmişdir. Belə ki, ixracyönümlü kənd təsərrüfatı məhsullarını istehsal edən fermer təsərrüfatlarının güzəştli kredit resurslarına çıxışın asanlaşdırılması istiqamətində dövlət dəstəyi simasında AKİA və SİF çıxış edir. Bu qurumlarla bərabər kommersiya bankları və bu digər kredit təşkilatları da bu çərçivədə dəstək tədbirlərini davam etdirir.

Aparılmış tədqiqatın nəticələrinə əsasən, 2010-2020-ci illər ərzində Azərbaycanda kənd təsərrüfatına ayrılan ümumi vəsaitlərin büdcə xərclərində payı göstəricisi müxtəlif illərdə 3.1-3.5% arasında olub, aqrar sahə üzrə birbaşa subsidiyaların payının isə 0.95%-dən 1.43%-ə dəyişdiyi müşahidə olunmuşdur. 2016-cı ilə nəzərən 2020-ci ildə kənd təsərrüfatı və ərzaq məhsullarının ixracı 1.6 dəfə artmışdır.

Son 15 il ərzində kənd təsərrüfatı məhsullarının ixracı və istehsalı ilə məşğul olan fermer təsərrüfatlarına təqribən 3 milyard manatdan artıq birbaşa dövlət dəstəyinin verilmişdir. Bu illərdə dövlət dəstəyinin həcmi 7.2 dəfə artırılıb. Aşağıdakı qrafikdən kənd təsərrüfatı istehsalçılarına verilmiş dövlət dəstəyinin (subsidiya) həcmi dinamikasında müşahidə etmək olar (***Qrafik 4***):




**Qrafik 4. Kənd təsərrüfatı istehsalçılarına verilmiş dövlət dəstəyinin (subsidiya) həcmi, milyon manat**

*Mənbə: AKİA-nın məlumatları əsasında tərtib edilib*

Bununla yanaşı, Nazirlər Kabineti tərəfindən müvafiq Qərarı ilə 2017-2020-ci illər ərzində bir sıra kənd təsərrüfatı və emalı məhsullarının ixracatçılarına onların ixrac etdiyi müvafiq məhsulların ixrac dəyərinin 3-6%-i həcmində ödənilmiş ixrac təşviqini də qeyd etmək lazımdır. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyindən əldə edilmiş məlumatlara əsasən, həmin illər ərzində bu sahənin ixracatçılarına 13 milyon manata yaxın dəstək məbləği ödənilmişdir (***Cədvəl 1***).

**Cədvəl 1. Azərbaycanda kənd təsərrüfatı və ərzaq məhsullarının ixracına təşviqlə bağlı məlumat (min manat)**

| | **2017** | **2018** | **2019** | **2020** |
|---|---|---|---|---|
| Quş yumurtası | 0 | 76.2 | 0 | 0 |
| Təbii bal | 0 | 0 | 0 | 0 |
| Qabığı təmizlənmiş meşə fındığı | 0 | 792.1 | 2497.7 | 3286.7 |
| Xurma | 43.1 | 580.7 | 1016.3 | 801.6 |
| Nar | 6.9 | 78.1 | 170.5 | 157.8 |
| Qurudulmuş meyvələr | 0 | 4.7 | 16.0 | 17.5 |
| Meyvə və tərəvəz şirələri və konservləri | 348.9 | 475.3 | 400.0 | 471.5 |
| Qablaşdırılmış, ağardılmış və ya qovrulmuş fındıq | 17.6 | 87.1 | 156.2 | 204.1 |
| Təbii üzüm şərabları və üzüm suslosu | 272.4 | 293.8 | 378.6 | 228.3 |

*Mənbə: İqtisadiyyat Nazirliyinin məlumatlarına əsasən müəllif tərəfindən tərtib olunub*

Araşdırmalar nəticəsində məlum olmuşdur ki, ölkədə təzə meyvə istehsalının təqribən 27%-i, təzə tərəvəz istehsalının isə 12.6%-i ixracyönümlüdür. Bu göstərici fındıqda 95.7%, pambıqda 76.4%, tütündə 69.6%, xurmada isə 67.9%-dir. Ölkədə hər min ABŞ dolları alma və pomidor istehsalı müvafiq olaraq 350 və 780 ABŞ dolları həcmində ixrac dəyəri dövriyyəyə qaytarılmışdır. Dövlət dəstəyinin ixrac məbləğindəki payına görə isə üzüm fərqlənməkdədir (***Cədvəl 2***).

**Cədvəl 2. İxracyönümlü kənd təsərrüfatı məhsullarının istehsalı və ixracına dövlət dəstəyi barədə məlumat**

| Məhsulun adı | Məhsul üzrə dövlət dəstəyi məbləği, min ABŞ dolları | Dövlət dəstəyinin ixracda payı, % | Məhsul ixracının istehsalda payı, % | |
|---|---|---|---|---|
| | | | dəyərə görə | natural ifadədə |
| Meyvələr, o cümlədən | 17.55 | 4.97 | 78 | 27.0 |
| alma | 0.01 | 0.03 | 35 | 23.9 |
| Üzüm | 1.45 | 29.53 | 8 | 3.2 |
| Kartof | 1.66 | 4.9 | 12 | 7.8 |
| Tərəvəz, o cümlədən | 1.1 | 0.53 | 57 | 12.6 |
| pomidor | 0 | 0 | 77 | 24.2 |
| xiyar | 0 | 0 | 14 | 2.2 |
| soğan | 0.01 | 0.24 | 20 | 6.3 |

*Mənbə: Dövlət Statistika Komitəsinin və Kənd Təsərrüfatı Nazirliyinin məlumatlarına əsasən müəllif tərəfindən tərtib olunub*

Qeyd edilən təşviq tədbiri öz müsbət təsirini göstərsə də, ÜTT-nin tövsiyələrini nəzərə alaraq, daha təkmil və dolayı təsir gücünə malik təşviq mexanizmlərinə diqqət yetirilməsi məqsədəmüvafiq olardı. Fikrimizcə, bazarda təhrif yaratmayan və kənd təsərrüfatının inkişafına hədəflənmiş dövlət dəstəyinin artırılması hesabına ixracyönümlü məhsul istehsalı və onların çeşidləri genişlənə bilər. Bununla yanaşı, ixracyönümlü təzə meyvə və tərəvəz istehsalı ilə məşğul olan fermer təsərrüfatlarının inkişafına və maliyyələşməsində əhəmiyyətli təsir göstərər.

Tədqiqatlar zamanı maliyyələşdirmə alətlərinin kənd təsərrüfatı ixracatına təsirini modelləşdirmək, dövlət dəstəyinin səmərəliliyini qiymətləndirmək və zaman sıraları əsasında onlar arasındakı dinamik asılılığın aşkar edilməsi məqsədilə ekonometrik təhlillər aparılmışdır.

2010-2020-ci illər üzrə Azərbaycanda kənd təsərrüfatı

məhsullarının ixracına təsir edən amillər (subsidiyalar və əlavə dəyərin həcmi) arasındakı dinamik asılılığı qeyr-stasionar olduğundan “ARİMA” (Auto Regressive Integrated Moving Average) modelindən istifadə edilməklə qiymətləndirilmişdir (***Cədvəl 3***).

**Cədvəl 3. Azərbaycanda kənd təsərrüfatı və ərzaq məhsulları ixracına təsir edən amillər arasındakı asılılığın ekonometrik qiymətləndirmənin nəticələri**

```
ARIMA regression

Sample:  2011 - 2020                         Number of obs     =         10
                                             Wald chi2(3)      =      87.86
Log likelihood =  5.802557                   Prob > chi2       =     0.0000
```

| D.lg_ixrac | Coef. | OPG Std. Err. | z | P>\|z\| | [95% Conf. | Interval] |
|---|---|---|---|---|---|---|
| lg_ixrac | | | | | | |
| lg_subsidiya | | | | | | |
| D1. | .7081145 | .3089759 | 2.29 | 0.022 | .1025328 | 1.313696 |
| lg_udm | | | | | | |
| D1. | 4.640011 | .5005513 | 9.27 | 0.000 | 3.658948 | 5.621073 |
| _cons | -.3251819 | .1469738 | -2.21 | 0.027 | -.6132453 | -.0371185 |
| ARMA | | | | | | |
| ar | | | | | | |
| L1. | .0749632 | .5316548 | 0.14 | 0.888 | -.9670611 | 1.116988 |
| ma | | | | | | |
| L1. | .9999884 | . | . | . | . | . |
| /sigma | .1193196 | .033986 | 3.51 | 0.000 | .0527082 | .185931 |

Note: The test of the variance against zero is one sided, and the two-sided confidence interval is truncated at zero.

*Mənbə: “STATA” proqramından çıxarışa əsasən müəllif tərəfindən hazırlanmışdır.*

“STATA” proqram paketindən istifadə edilməklə aparılmış ekonometrik qiymətləndirmənin nəticələrinə görə modelin reqressiya tənliyi aşağıdakı kimi təsvir edilmişdir:

$$\mathrm{lg}\widehat{_ıxrac} = -0.3251819 + 0.7081145\mathrm{lg}\widehat{_subsıdıya} + 4.640011\mathrm{lg}\widehat{_udm} \quad \mathbf{(1)}$$

Qrafiklərdən və stasionarlıq testlərindən çıxan nəticələrin təhlilindən modelin interpretasiyasını çıxarmaq mümkündür. Modelin interpretasiyası ikitərəfli loqarifmik funskiya olduğunda faizlə aparılır. Belə ki, modeldən nəticəyə görə, kənd təsərrüfatına ayrılmış subsidiyanın 1% artımı onun ixrac həcmini 0.71% artırır. Kənd təsərrüfatı üzrə yaradılmış əlavə dəyərin isə 1% artımı  ixrac həcmini 4.64% artırmış olur.

Aparılmış tədqiqatlar nəticəsində məlum olmuşdur ki, ölkədə ixracatçı fermer təsərrüfatlarına dövlət tərəfindən maliyyə alətləri vasitəsilə pərakəndə şəkildə dəstək verilsə də, bununla bağlı ardıcıl və çevik tədbirlər sistemini əhatə edən bir mexanizm hələ də tam formalaşmamışdır. Bununla bağlı, elmi cəhətdən əsaslandırılmış işlək mexanizmin yaradılması və tətbiq edilməsi ixrac məhsullarını istehsal edən fermer təsərrüfatlarının iqtisadi səmərəliliyini artırılmasına və ixrac həcminin genişlənməsinə töhvə verəcəkdir.

Ölkədə ixracatçı fermer təsərrüfatlarına göstərilən dövlət dəstəyinin optimallaşdırılması məqsədilə aşağıdakı tədbirlərin görülməsi, fikrimizcə, məqsədəuyğundur:

- ixraca dəstək verən təşkilati və institusional mexanizmin təkmilləşdirilməsi və bu mexanizmə daxil olan qurumların əhatə dairəsinin, fəaliyyət istiqamətlərinin genişləndirilməsi, həmçinin onlar arasında koordinasiyanın təşkil edilməsi;
- beynəlxalq təcrübələrdən istifadə edərək, ÜTT norma və qaydalarına uyğun olaraq tövsiyə olunan dolayı ixrac dəstəyi vasitələrindən istifadəsinin genişləndirilməsi;
- fermer təsərrüfatlarına subsidiya kimi verilən dövlət büdcəsi vəsaitlərində ixracatçı subyektlərin ünvanlılığın təmin edilməsi və digər fermerlərə münasibətdə ixracatçı fermerlərə üstünlük verilməsi (məsələn, əmsalların bu qaydaya uyğun diferensiallaşdırılması, istehsal həcminin ixraca yönəldilməsinə görə fərqləndirmə və s.)
- ixracatçı fermer təsərrüfatlarına 2016-2020-ci illər ərzində ödənilmiş təşviq məbləğlərinin yenidən tətbiqi (ixrac subsidiyaları) məsələsinə dair yeni mexanizmin ÜTT-nin qayda və tövsiyələrinə uyğun işlənməsi və subsidiyalaşmanın davam etdirilməsi, bununla bağlı normativ hüquqi bazanın təkmilləşdirilməsi;
- Qərbi Avropa və digər ölkələrə ixrac edilən kənd təsərrüfatı məhsullarının beynəlxalq keyfiyyət standartlarına uyğunluğuna nəzarət mexanizminin və sertifikasiyasının təkmilləşdirilməsi, həmçinin məhsulların sertifikatlaşdırmasında dövlət dəstəyinin gücləndirilməsi;
- ixracda ənənəvi olan məhsullar üçün daha optimal və gəlirli hesab edilən ixrac bazarlarına yönəldilməsinin təşviqi, siyasi-diplomatik və iqtisadi mühitin yaradılması,  ixracatçı fermerlər

arasında maarifləndirmə işlərinin genişləndirilməsi;

- ixracda qeyri-ənənəvi hesab edilən məhsullar üçün potensial ixrac bazarlarının öyrənilməsi və fermerlər arasında təbliğat-təşviqat işlərinin həyata keçirilməsi;

- güzəştli maliyyə resursları ilə bağlı ixracatçı fermer təsərrüfatları arasında maarifləndirici tədbirlərin davam etdirilməsi;

- ixracın və kənd təsərrüfatının maliyyələşdirilməsi üzrə kredit məhsulu təklif edən bank və digər təşkilatların bu sahə üzrə fəaliyyətinin dövlət tərəfindən stimullaşdırılması;

- ixracın maliyyələşdirilməsi üzrə kredit məhsulu təklif edən bank və digər təşkilatların kredit risklərinin dövlət sığortası və zəmanət verilməsi imkanlarının reallaşdırılması;

- ixracatçı fermer təsərrüfatlarının əldə etdiyi kreditlərə dövlət sığortası mexanizminin işlənməsi.

**4. İxracatçı fermer təsərrüfatlarının maliyyələşdirilməsi üzrə qabaqcıl beynəlxalq təcrübə öyrənilmiş və onun üstünlüklərinin Azərbaycanda tətbiqi istiqamətində əsaslandırılmış təkliflər işlənib hazırlanmışdır.**

Dünyanın müxtəlif ölkələrində ixracatçı fermer təsərrüfatlarının maliyyələşdirilməsi ilə bağlı öyrənilmiş təcrübədən belə nəticəyə gəlmək olar ki, hökumətlər bu sahəyə xüsusi diqqət ayırır, həmçinin hər bir ölkənin özünəməxsus maliyyələşmə mexanizmi və alətləri mövcuddur. Ona görə ki, bu sahə həm ərzaq təhlükəsizliyinin təmin edilməsi, həm aqrar sahibkarlığın inkişafı və həm də xarici iqtisadi əlaqələrin möhkəmləndirilməsi baxımından mühüm strateji əhəmiyyətə malikdir. Bunun nəticəsidir ki, təcrübəsi nəzərdən keçirilmiş ölkələrin ixracatında kənd təsərrüfatının payının böyük olması hökumətləri müxtəlif proqramlar həyata keçirməyə, islahatlar tətbiq etməyə, mexanizmi daim təkmilləşdirməyə və bu istiqamətdə ixtisaslaşmış təşkilatlar yaratmağa sövq edir. Ona görə ki, bu sahənin inkişafının təmin edilməsi və mövcud tələblərə uyğun şəkildə fəaliyyət göstərməsi üçün səmərəli maliyyələşmə mexanizminin qurulmasına ehtiyac vardır.

Beynəlxalq təcrübənin təhlili nəticəsində ABŞ, Yaponiya, Almaniya, İngiltərə, İsveçrə, Rusiya, Polşa, Belarus, Qazaxıstan və Türkiyədə ixracatçı fermerlərin maliyyələşməsi təcrübəsinin üstünlükləri ölkədə tətbiq üçün məqsədəuyğun hesab edilə bilər. ABŞ, İsveçrə,

Rusiya, Qazaxıstan və Türkiyədə ixracata EXİM Banklar və ixrac kreditləşməsi üzrə ixtisaslaşmış digər kredit təşkilatlarının fəaliyyəti xüsusi diqqət cəlb edir. Yaponiyada kənd təsərrüfatı kooperativlərinə ixrac üçün güzəştli kreditlər və avans ödənişləri ilə bağlı proqramların qəbul edilməsi, innovativ layihələrin ixracının kreditləşdirilməsi məsələləri, həmçinin ixrac məhsullarının beynəlxalq standartlara cavab verməsinə yönəlmiş dəstək mexanizmləri nümunə kimi verilir. Almaniya və İngiltərədə ixrac maliyyələşməsinə yönəlmiş kompleks dövlət proqramlarının qəbul edilməsi, bu sahədə mərkəzləşmiş dövlət nəzarətinin mövcudluğu, dövlət zəmanəti və sığortalanması üzrə maliyyə və inzibati qurumların təşkil edilməsi əhəmiyyətli nəticələr əldə edilməsinə təkan vermişdir. Fikrimizcə, qeyd edilən qabaqcıl təcrübələrin ölkəmizdə tətbiqi imkanları mövcuddur və gələcəkdə kənd təsərrüfatı ixracının artırılmasına əhəmiyyətli şəkildə töhvə verə bilər.

Qeyd etmək lazımdır ki, aqrar sektora ayrılan kredit vəsaitləri fermer təsərrüfatlarının maliyyə sabitliyi, geniş təkrar istehsalın fasiləsizliyi və effektivliyi, maliyyə mexanizmindəki yeri baxımından əhəmiyyət kəsb edir. Digər fermer təsərrüfatları kimi, ixracatçı fermer təsərrüfatları da aqrar kredit xidmətlərindən yararlana bilirlər. Beynəlxalq təcrübədə məhsul ixracına maraq göstərən və bu istiqamətə yönəlmiş fermerlər üçün kredit şərtləri, digər aqrar kredit təkliflərindən güzəşt və dəstək həcminə görə fərqləndirilir.

Xarici ölkələrin təcrübəsi göstərir ki, İEÖ-lərdə milli ixracatçılara ixracın inkişafını təşviq edən geniş maliyyə məhsulları təklif edir. Eyni zamanda, bəzi ölkələr ixrac kreditləri, zəmanət və sığorta təmin edən böyük ixrac dəstəyi təsisatları yaratmışkən, digərlərində ixrac dəstəyi üzrə ixtisaslaşmış institutları (ixrac kreditlərinin verilməsində ixtisaslaşan dövlət bankları və klassik ixrac kredit agentlikləri) fəaliyyət göstərməkdədir.

Qeyd edilən məsələləri ümumiləşdirərək ixracatçı fermer təsərrüfatlarının maliyyələşdirilməsi mexanizmininin təkmilləşdirilməsi üçün aşağıdakı prioritet istiqamətlərin nəzərə alınması məqsədəuyğundur:

- fermer təsərrüfatlarında aparılan ilkin və maliyyə uçotunun düzgün təşkil edilməsi ilə bağlı tədbirlər görülməlidir;
- ixraca dəstək verən qurumların fəaliyyətinin koordinasiyası təmin

edilərək sistemləşdirilməli, eləcə də ixraca kredit və ya zəmanət verən maliyyə təşkilatlarının sayı və fəaliyyət sahəsi genişlənməlidir;

- ixrac-idxal əməliyyatları, eləcə də aqrar profildə ixtisaslaşmış bankların yaradılması üzrə iqtisadi və hüquqi mühitin formalaşdırılmalıdır;
- ixracda ilkin kənd təsərrüfatı məhsulları ilə müqayisədə aqrar emal məhsullarına üstünlük verilməsini nəzərdə tutan stimullaşdırma vasitələri nəzərdə tutulmalıdır;
- rəqəmsal kənd təsərrüfatının və ixracatda rəqəmsal maliyyələşmə alətlərinin innovativ imkanlarından istifadə edilməlidir;
- ixracatçı fermer təsərrüfatlarında innovativ maliyyələşmə mexanizmləri və onların aqrar sektorda tətbiqi imkanları mövcud maliyyə institutları tərəfindən qiymətləndirilməlidir;
- ixracda kiçik fermer təsərrüfatlarının birgə əməkdaşlığını və birgə maliyyələşməsini nəzərdə tutan təşviqedici alətlərdən istifadə edilməlidir;
- kənd təsərrüfatı fəaliyyətində yaranan dəyər zənciri boyunca hər bir mərhələ üzrə spesifik maliyyə alətləri nəzərdə tutulmalı və onların dəyər zənciri boyunca inkişafı təşviq edilməlidir.
- ixrac bazarları və ixrac maliyyələşdirilməsi alətləri ilə bağlı fermerlər arasında maarifləndirici tədbirlər aparılmalıdır.

## ƏSAS NƏTİCƏLƏR

Tədqiqat işində ixracatçı fermer təsərrüfatlarının maliyyələşdirilməsi mexanizmi təhlil edilmiş və əldə edilmiş aşağıdakı elmi nəticələr əsaslandırılmışdır:

- ✓ İxrac və kənd təsərrüfatı sahəsi ilə bağlı nəzəri-konseptual yanaşmaların müzakirəsinin nəticəsi kimi müəyyən olunmuşdur ki, kənd təsərrüfatı məhsullarını ixrac edən fermer təsərrüfatlarının ərzaq dəyər zəncirində fəal iştirakı stimullaşdırılma mexanizmlərinin səmərəliliyindən asılıdır.
- ✓ Təhlillər və araşdırmalar nəticəsində məlum olmuşdur ki, ölkədə ixracatçı fermer təsərrüfatlarına dövlət tərəfindən maliyyə alətləri vasitəsilə pərakəndə şəkildə dəstək verilsə də, bununla bağlı ardıcıl və çevik tədbirlər sistemini əhatə edən bir mexanizm hələ də tam formalaşmamışdır. Bununla bağlı, elmi cəhətdən əsaslandırılmış işlək mexanizmin yaradılması və tətbiq edilməsi ixrac məhsullarını istehsal

edən fermer təsərrüfatlarının iqtisadi səmərəliliyini artırılmasına və ixrac həcminin genişlənməsinə töhvə verəcəkdir.

- ✓ İnkişaf etməkdə olan ölkələrdə fermer təsərrüfatlarının və kiçik sahibkarların maliyyə resurslarına çıxışının asanlaşdırılması prioritet məsələyə çevrilmiş və bu sahədə mühüm addımlar atılır. Bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq maliyyə bazarının inkişaf etdiyi bir sıra ölkələrdə kənd təsərrüfatı sahəsi yüksək texnologiyalarla inkişaf edir, çünki bu ölkələrdə maliyyə bazarının aqrar bazara nüfuz etməsi fermer təsərrüfatlarının hərtərəfli maliyyə alətlərindən, bütün maliyyə institutlarının xidmətlərindən istifadə etməsinə təminat yaradır.
- ✓ İxracın təşviqi və ixrac həcminin artırılması üçün ixracatçılara maliyyə və qeyri-maliyyə mexanizmləri vasitəsilə əlverişli mühit yaratmaq, ixracyönümlü innovativ məhsul istehsalının artırılması üçün stimullaşdırıcı tədbirlərdən Polşa, Yaponiya, İsveçrə və digər İEÖ-lərdə geniş istifadə edilir. Tədqiq edilən ölkələrdə ixracı dəstəkləyən xüsusi dövlət qurumları fəaliyyət göstərir. Bu qurumlar ixracın inkişafı agentliyi qismində həm ixracatçı ölkədə, həm də xaricdə geniş ofis şəbəkəsi yaradaraq texniki-informasiya və maliyyə təşviqat xarakterli dəstək tədbirlərini həyata keçirir.
- ✓ Azərbaycanda perspektivli ixrac məhsullarının müəyyənləşdirilməsi və region ölkələrinin ixrac-idxal strukturları arasında məlumat mübadiləsi üçün İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin təşəbbüsü ilə "azexport" elektron portalı yaradılmışdır. Bununla yanaşı, ixracatçı subyektlərə texniki-informasiya və marketinq dəstəyinin göstərilməsi üçün AZPROMO və Kiçik və Orta Biznesin İnkişafı Agentliyi kimi dövlət qurumları fəaliyyət göstərir.
- ✓ Aparılan araşdırmaların nəticəsində ixracyönümlü kənd təsərrüfatı məhsulu istehsal edən fermer təsərrüfatlarında ilkin uçotun aparılmasına hədəflənmiş vergi güzəştlərinin tətbiqi və ixrac təşviqi ilə bağlı tədbirlərin növbəti illər üzrə geniş miqyasda davam etdirilməsi ixrac edən fermerlərin maliyyə vəziyyətini daha da yaxşılaşdıracağı gözlənilir.
- ✓ Tədqiqatlar zamanı məlum olmuşdur ki, kənd təsərrüfatına dövlət dəstəyi mexanizmdə kənd təsərrüfatı məhsullarının ixracının stimullaşdırılması üçün subsidiyalar nəzərdə tutulmamışdır. Onların

ixracata yönəlməsi üçün bu mexanizmdə kredit faiz dərəcələrinin subsidiyalaşdırılması və ya digər dolayı stimullaşdırma alətlərinin də nəzərdə tutulmasına ehtiyac vardır.

- ✓ Tədqiqat işində kənd təsərrüfatı məhsullarının ixracına təsir edən amillər arasındakı dinamik asılılığın ölçülməsi üçün "ARİMA" (Auto Regressive Integrated Moving Average) modelindən istifadə edilməklə ekonometrik təhlil aparılmışdır. Qrafiklərdən və stasionarlıq testlərindən çıxan nəticələrə görə kənd təsərrüfatına ayrılmış subsidiyanın 1% artımı onun ixrac həcmini 0.71% artırır. Kənd təsərrüfatı üzrə yaradılmış əlavə dəyərin isə 1% artımı ixrac həcmini 4.64% artırmış olur. Bununla yanaşı, nə kredit vəsaitləri, nə də investisiya qoyuluşlarının həcmi kənd təsərrüfatının ixracına ciddi təsir etməmişdir. Bu da kredit vəsaitlərinin daha çox ixracatla məşğul olmayan, xüsusilə daxili bazarda məhsul istehsalı ilə məşğul olan təsərrüfatlara yönəldiyindən xəbər verir. Əldə olunan nəticələrdən belə qənaətə gəlmək olar ki, bu sahəyə verilən kredit və investisiya qoyuluşlarının ixraca yönəldilməsi üçün sistemli bir yanaşma və təkmil maliyyələşmə mexanizminin yaradılmasına ehtiyac vardır.

**Dissertasiya işinin əsas müddəaları, əldə olunan nəticə və təkliflər dərc olunmuş aşağıdakı elmi əsərlərdə əks olunmuşdur:**

1. А.А.Дадашов, «Особенности механизма традиционного финансирования в фермерских хозяйствах» / Материали XIV Международная научно-практическая конференция «Мировые тенденции и перспективы развития финансовой системы, Украина // - Киев, -2017, №2, УДК 336, - стр.364-370.

2. Ə.Ə.Dadaşov, "Fermer təsərrüfatlarının kooperativlərdə birləşməsinin zəruriliyi və onların maliyyələşməsi mexanizminin Yaponiya təcrübəsi" / Azərbaycan Dövlət İqtisad Universitetinin elmi xəbərləri // -Bakı, -2017, №5, ISSN 2306-8426, -s.172-184.

3. Ə.Ə.Dadaşov, "Fermer təsərrüfatlarında maliyyələşmə mexanizminin əsas xüsusiyyətləri" / Azərbaycan Aqrar Elmi // -Bakı, -2018, №1, ISSN-76149, -s.165-168.

4. Ə.Ə.Dadaşov, "Fermer təsərrüfatlarında ixrac potensialının qiymətləndirilməsi və dünya bazarına çıxış imkanlarının təhlili" / Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunun elmi əsərləri // -Bakı, -2018, №1, ISSN 2519-4909, -s.192-199.

5. Ə.Ə.Dadaşov, “İxracatçı fermer təsərrüfatlarının maliyyələşdirilməsində maliyyə institutlarının rolu və əhəmiyyəti” / İpək Yolu // -Bakı, -2019, №2, ISSN 1810-911X, -s.70-80.

6. Ə.Ə.Dadaşov, “Fermer təsərrüfatlarının istehsal və ixracına vergi güzəştlərinin təsiri” / Kooperasiya // -Bakı, -2019, №3, cild 54, ISSN 2218-91-49, -s.28-37.

7. Ə.Ə.Dadaşov, “Azərbaycanda fermer təsərrüfatlarının kreditləşmə mexanizminin əsas xüsusiyyətləri və onun təkmilləşdirilməsi istiqamətləri” / Azərbaycan Vergi Jurnalı // -Bakı, -2019, №1, cild 138, ISSN 2305-4611, -s.109-121.

8. Ə.Ə.Dadaşov, “İxracatçı fermer təsərrüfatlarının maliyyələşməsində innovativ mexanizmlərin tətbiqi perspektivləri” / “İqtisadi və statistik tədqiqatlarda innovasiyaların tətbiqi” elmi-praktiki konfransının materialları // -Bakı, -2019, -s.27-30.

9. Ə.Ə.Dadaşov, “Kənd təsərrüfatı məhsullarının ixracatında kooperasiyalaşmanın rolu” / “Kənd təsərrüfatında kooperasiyanın mövcud vəziyyəti və inkişaf perspektivləri” adlı respublika elmi-praktik konfransının materialları // -Gəncə, -2020, -s.54-59.

10. A.A.Alakbarov, N.N.Khudiyev, A.A.Dadashov, “International experience on insurance of farms from export risks: existing problems and perspectives in Azerbaijan” / “55th International Scientific Conference on Economic and Social Development” book of proceedings // -Baku, -2020, -Vol 2/4, ISSN 1849-7535, -p.76-88.

11. A.A.Dadaşov, “Küresel koronavirüs pandemisi ve özel karantina rejiminin tarım ekonomisine etkileri” / “TURAN-SAM Uluslararası Bilimsel Hakemli Dergisi // -Kars, -2021, -№7, cild 13, ISSN: 1308-8041, s.128-136.

12. А.А.Дадашов, «Перспективы применения нового подхода в увеличении доступа к кредитным ресурсам фермерских хозяйств (на примере Азербайджана)» / «Экономика и управление: проблемы, решения» научно-практический-теоретический журнал, Россия // - Москва, -2021, №8, том 2, -ISSN: 2227-3891, - стр.4-12.

Dissertasiyanın müdafiəsi 15 noyabr 2023-cü il tarixində saat 15:00-da Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində fəaliyyət göstərən ED 2.10 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1001, Bakı şəhəri, İstiqlaliyyət küç., 6

Dissertasiya işi ilə Azərbaycan Dövlət İqtisad Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət İqtisad Universitetinin rəsmi internet saytında (www.unec.edu.az) yerləşdirilmişdir.

Avtoreferat 13 oktyabr 2023-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 13.09.2023.
Kağızın formatı: 60x84 $_{1/16}$. Sifariş 017/09.
Həcmi 1 ç.v. (37664 işarə). Tiraj 100.

*“AA – Poliqraf” istehsalat-kommersiya birliyində
hazır diopozitivlərdən istifadə olunmaqla çap edilmişdir.
Əlaqə üçün: capevi@internet.ru / (+99455) 201-2809*